# Z.Səmədzadə: "Azərbaycanın gələcəyə hədəflənmiş inkişaf strategiyası var"

**Yanvarın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə ilə bağlı millət vəkili, akademik Ziyad Səmədzadə Real TV-yə müsahibə vermişdir. Müsahibəni diqqətinizə çatdırırıq.**




*- Ziyad müəllim, yəqin ki, izləmisiniz, çox geniş və maraqlı müsahibə idi. Ölkə başçısı postmüharibə dövründə Azərbaycanın iqtisadi potensialına toxundu. Zəngəzur dəhlizi burada deyərdik ki, kuliminasiya nöqtəsi idi. Çünki bizim demək olar ki, gələcəklə bağlı əksər planlarımız Zəngəzur dəhlizi ilə bağlıdır. İndi ölkə başçısının da dediyi kimi, bunun adını fərqli demək olar, amma mahiyyət dəyişmir. Necə düşünürsünüz, Zəngəzur dəhlizi Azərbaycan iqtisadiyyatı üçün, ələlxüsus, yeni reallıqlarda nə vəd edir?*

- Əvvəlcə mən tam razılıq hissi ilə bildirmək istəyirəm ki, cənab prezidentin media nümayəndələri ilə görüşündə Azərbaycan dövlətinin istər xarici, istər daxili siyasəti ilə əlaqədar olaraq çox geniş, dəyərli məlumatlar verildi. Bəlkə də heç şübhəsiz ki, cənab prezidentin orada irəli sürdiyi təkliflər bir neçə elmi konfransın müzakirə obyekti ola bilər. Çünki, sözün əsl mənasında, bunlar qloballaşma şəraitində Azərbaycan iqtisadiyyatı, onun xarici siyasəti, konfliktlərin geniş vüsət aldığı bir şəraitdə müstəqilliyin qorunması ilə bağlı tarixi fikirlərdir. O ki qaldı Azərbaycan iqtisadiyyatının son illərdə əldə etdiyi uğurlara, bu barədə cənab prezident kifayət qədər məlumat verdi.

Biz zəfər bayramının beş illiyini qeyd etmişik. Bu illər ərzində Azərbaycanda dinamik inkişaf təmin olunub. Büdcə gəlirlərinin artması təmin olunub. Ölkənin iqtisadi inkişafı ilə əlaqədar bir sıra irimiqyaslı layihələr **həyata keçirilib**. Cənab prezident **birmənalı şəkildə bir daha vurğuladı ki, Azərbaycan dünyanın ən mühüm nəqliyyat və logistika mərkəzlərindən biridir.**

Ulu Öndər Heydər Əliyev 1998-ci ildə qədim Şərq İpək yolunun bərpası ilə əlaqədar təşkil etdiyi beynəlxalq konfransda bildirmişdi ki, bu layihələrdə iştirak Azərbaycan üçün daimi kapitaldır, daimi gəlir mənbəyidir. Heç şübhəsiz ki, Zəngəzur dəhlizinin adının necə olmasından asılı olmayaraq, bu dəhlizin bərpası, işə düşməsi Azərbaycan üçün daimi kapitaldır, daimi gəlir mənbəyidir, daimi güc mənbəyidir.

Çünki Şərq və Qərb arasında coğrafi-iqtisadi əlaqələri reallaşdıran yeganə ölkə Azərbaycandır. Ona görə mən birmənalı şəkildə cənab prezidentin Zəngəzur dəhlizi ilə əlaqədar verdiyi qərarları birmənalı şəkildə dəstəkləyirəm və o fikirlər mütləq həyata keçiriləcəkdir. Hələ üç-dörd il bundan qabaq cənab prezident bəyan etmişdi ki, istəsələr də, istəməsələr də, Zəngəzur dəhlizi fəaliyyət göstərəcəkdir. Cənab prezident konkret faktlara əsaslanaraq bildirdi ki, Zəngəzur dəhlizinin açılması Azərbaycanın həm Avropa, həm də Asiya hissəsində nüfuzunun artmasına imkan verəcəkdir. Artıq bu istiqamətdə bilirsiniz ki, böyük işlər görülür. Dəmir yolları çəkilir, hava limanları tikilir, avtomobil yolları çəkilir. Ən çətin, ağır şəraitlərdə tunellər tikilir, körpülər salınır, böyük, irimiqyaslı layihələr həyata keçirilir.

Bu reallıqdır və hesablamalar göstərir ki, yaxın illərdə biz burdan 10-15 milyon ton yük daşınmasına nail olacağıq. Bu, təkcə Azərbaycanın logistika mərkəzi kimi rol oynamayacaq. Eyni zamanda, buna müvafiq olaraq işğaldan azad edilmiş rayonlarda bu yüklərin daşınması ilə əlaqədar əlavə işlər görüləcək, yeni istehsal sahələri yaradılacaq. Yəni, Zəngəzur dəhlizinin fəaliyyəti Azərbaycan üçün, bir daha deyirəm, daimi kapitaldır. Tarix göstərir ki, dünyada müharibələrin çoxu yollara görə başlayıb. Hansı ölkələr ki yolun üstündədir, o ölkələrə həmişə təzyiqlər olub. Hansı ölkələr ki, yoldan məhrumdurlar, onlar çətinliklərlə üzləşiblər. Azərbaycanın Xəzər dənizi, dəmir yolları tikintisi, aeroportların tikintisi, üstəlik də gəmiqayırma zavodunun tikilməsi, Ələt İqtisadi zonanın yaradılması, Bakı Dəniz Limanının fəaliyyəti - bütün bunlar hamısı birmənalı şəkildə, kompleks şəkildə bu dəhlizin normal fəaliyyəti üçün geniş imkanlar açır. Ancaq bunun üçün bizim kadrlarımızın artması, mühəndis texniki kadrlara olan tələbatın tam ödənilməsi təmin edilməlidir. Eyni zamanda, Zəngəzur dəhlizinin fəaliyyəti bütövlükdə "Böyük qayıdış" proqramı çərçivəsində orda əhalinin məskunlaşmasını təmin edəcəkdir.

Cənab prezidentin bu görüşdə verdiyi fikirlər birmənalı şəkildə Azərbaycanın kompleks inkişafı üçündür.

Söhbət təkcə bir iqtisadi rayondan getmir. Bəli, bu gün "Böyük qayıdış" proqramı çərçivəsində dövlət büdcəsindən kifayət qədər vəsaitlər ayrılır. Amma cənab prezident bildirdi ki, müharibələr aparan ölkələrdə müharibədən sonra xeyli çətinliklər olur. Bəzi ölkələr diktə edirlər ki, sizə bu şərtlərlə borc veririk. Amma biz heç kimdən borc almırıq. Dəfələrlə təkrar etmişəm.

**Azərbaycan borc alan ölkədən borc verən ölkəyə çevrilir. Cənab prezidentin müsahibəsində bu məsələ xüsusi vurğulandı. Azərbaycan dünyada ən az borc alan ölkədir. Xarici borcumuz ümumi daxili məhsulun cəmi 6 faizini təşkil edir.**

Amma borc da almasaq, olmaz. Elə ölkələr var ki, borc almasa, inkişaf edə bilməzlər. Biz bu gün yeni texnologiyalar tətbiq etməliyik, yeni müasir texnologiyalara əsasən zavodlar, müəssisələr tikməliyik. Bunlar üçün isə xarici təcrübə lazımdır, xarici investisiyalar lazımdır. Ona görə cənab prezident tapşırıq qoyub ki, xarici borcun həddi 10 faizdən artıq olmasın. Bununla əlaqədar olaraq hökumət müvafiq işlər görür. Mən hesab edirəm ki, cənab prezidentin bu istiqamətdə gördüyü işlər təqdirəlayiqdir. Bizim kifayət qədər valyuta ehtiyatlarımız var. Biz valyuta ehtiyatlarından səmərəli istifadə edirik. Mən bir faktı deyim sizə. Biz 5-10 il bundan qabaq, Böyük İqtisadi Ensiklopediyanı hazırlayan zaman dünya ölkələrinin qızıl ehtiyatları ilə maraqlandıq. Bütün qızıl ehtiyatlarının 75-80%-i Avropa ilə Amerikanın payına düşürdü.

Baxmayaraq ki, Səudiyyə Ərəbistanı və digər neft hasil edən ölkələr milyard tonlarla neft hasil ediblər. Onların ümumi valyuta ehtiyatlarında qızıl ehtiyatları az idi. Azərbaycanda da belə idi.

Azərbaycanda baxın, qızıl almağa dövlətin imkanları genişlənir. Çox maraqlı bir faktdır ki, cənab prezidentin tapşırığı ilə biz 10 milyard dollar vəsait qazandıq. Nəyə görə? Düzgün siyasətə görə. Dünya bazarında baş verən prosesləri obyektiv qiymətləndirməyə görə. Cənab prezidentin media nümayəndələrinin suallarına verdiyi cavablar bir daha onu göstərir ki, Azərbaycanın gələcəyə hədəflənmiş inkişaf strategiyası var. Azərbaycanın gələcəyə hədəflənmiş sosial proqramı var. Bəzən deyirlər, problemlər var, çətinliklər var. Amma cənab prezident hərbi sənaye ilə əlaqədar suala çox gözəl bir cavab verir:

**Biz idxalımızı daxili istehsalımızın hesabına ödəməliyik.**

Bəli. Biz artıq bu gün bir milyard manatdan çox hərbi silah ixrac edirik. Azərbaycan kifayət qədər bacarıqlı bir ölkədir. Amma sovet dövrünün son illərində bu sənaye dağılmışdı. Biz artıq bu gün müasir silahlar istehsal edirik. Çünki dünya hadisələri göstərdi ki, beynəlxalq hüquq yoxdur. Gücün varsa, hörmətin də var, səninlə hesablaşacaqlar. Gücün yoxdursa, sən qalırsan bu dünyada təzyiqlər arasında.

Ona görə cənab prezident dedi ki, baxmayaraq ki, biz müharibəni qurtarmışıq, hərbi gücümüzü də artırmalıyıq. Bu il büdcədən xeyli vəsaitlər nəzərdə tutulub.

Sovet dövründə kimin ağlına gələrdi ki, özəl sektorlar bu gün hərbi sənayeyə investisiya qoyacaqlar. Amma cənab prezidentin apardığı siyasət, ölkədə olan ictimai-siyasi sabitlik, özəl sektorun inkişafı üçün atılan addımlar imkan verir ki, kimin investisiyası var, vəsaiti var, kifayət qədər nüfuzu var, kifayət qədər kadr potensialı varsa, niyə də bu işdə iştirak etməsin?

Azərbaycan elə bir ölkədir ki, burada özəl sektorlar üçün də əlverişli şərait yaradılıb və bu, nəinki bir iqtisadçı kimi mənim üçün, bütövlükdə Azərbaycan cəmiyyəti üçün mesajdır ki, Azərbaycanda hər şeyi dövlət həll etmir. Dövlətlə bərabər özəl sektor da səmərəli şəkildə inkişaf edir. Mən birmənalı şəkildə bildirirəm ki, biz cənab prezidentin bu fikirlərindən istifadə etməliyik.

*- Bir də məsələlərə daha real baxmaq lazımdır ki, o pulu verilərsə, demək, diktə etdikləri məqamlar da olacaq. Ziyad müəllim, bir məsələyə toxunmağınızı istəyirəm. Zəngəzur dəhlizi təbii ki, bizdə perspektivdədir və bizim orda əldə edəcəyimiz maliyyə gəlirləri də əslində proqnozların nəyi dediyini göstərir. Amma mən digər bir məqama toxunmaq istəyirəm. Çünki işğaldan azad olunan ərazilərdə 24 saat iş gedir. Burada istər bizim həmvətənlərimizin tez bir zamanda ora qayıtması, istərsə də bizim inzibati binalar olsun, yaşayış məntəqələri olsun, tarixi abidələrimiz olsun, dini abidələrimiz olsun, bunların hamısının bərpası gedir və bu iş dayanmadan davam edir. Amma bu qoyulan investisiya gələcəkdə bizə necə qayıdacaq? Çünki bu, həqiqətən də, Azərbaycan iqtisadiyyatına böyük bir yükdür. Biz bunu indi yük kimi qiymətləndirmirik. Bu, bizim missiyamızdır. Çünki orada xeyli işlər görülür və ölkə başçısı vurğuladı ki, Ağdam da, Xankəndi də mərkəz şəhərlərdən biri olacaq. Bax bunları təhlil etsək, biz nəyin gözləntisindəyik?*

- Əvvəla, "Böyük qayıdış" proqramı çərçivəsində Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonları dünyanın ən yüksək səviyyədə yaşıl enerjiyə tələbatı olan, yaşıl enerji ilə iqtisadiyyatı, sosial sahəni inkişaf etdirən regionları olacaq. Baxmayaraq ki, ilk mərhələlərdə yaşıl enerjiyə qoyulan kapital qoyuluşu digər sahələrdən yüksəkdir, amma bunların tezliklə yaxın gələcəkdə effektini görəcəyik. Yəni, yaşıl enerji vasitəsilə burda yeni müəssisələr yaradılır.

Yaşıl enerji vasitəsilə Azərbaycan dünya bazarına yaşıl enerjini ixrac edən bir ölkə kimi tanınacaqdır. Yaşıl enerji ilə bu rayonlarda istehsalın hesabına bizim təbii qaz ixracımız artacaqdır. Bu, bir tərəfdən. İkinci tərəfdən, Karl Marksın belə bir sözü vardı ki, kapital o yerə axır ki, orda mənfəət var. Heç şübhəsiz ki, bu müəssisələrin istifadəyə verilməsi, ilə kənd təsərrüfatı yenidən qurulacaq, minalardan təmizlənəndən sonra müasir texnologiyalardan istifadə etməklə iş yerləri yaradılacaq. Cənab prezident bu məsələni tam açıqlığı ilə bildirdi ki, burada informasiya texnologiyalarının, süni intellektin inkişafı, yolların, körpülərin çəkilməsi miqrasiya proseslərinə yeni təkan verəcəkdir. Bu, bütövlükdə regionda miqrasiya proseslərini təkmilləşdirəcək, əhalinin məskunlaşmasını təmin edəcəkdir.

Ağdam şəhərində təxminən 140 min nəfərə qədər əhalinin yaşaması nə deməkdir? Hər bir məhsuldar əmək yeni dəyər yaradır. İşsizlik minimum olacaq.

*- Ziyad müəllim, bir məqamı da vurğulayaq. Ağdam şəhəri Baş plana uyğun olaraq 90-cı illərdəki Ağdam şəhəri olmayacaq. Kifayət qədər böyüyəcək.*

- Heç şübhəsiz, mən Ağdamın da, digər regionların da sovet dövründəki inkişaf göstəricilərindən məlumatlıyam. Ağdamda 90-cı illərin əvvəllərində, yəni sovet dövründə güclü sənaye müəssisələri yaradılmışdı. 3500 nəfərə qədər işçi sənayedə çalışırdı. Amma bu gün müasir texnologiyalara əsaslanan struktur yaradılır orada. Ağdam özü, eyni zamanda kənd təsərrüfatı rayonudur. Kənd təsərrüfatı müəssisələrinin inkişafı, orada əkin sahələrinin strukturunun təkmilləşməsi, ixtisaslaşmanın aparılması güclü emal müəssisələrinin yaradılmasını şərtləndirəcəkdir.

Ağdam, sözün əsl mənasında sovet yox, bugünkü müstəqil Azərbaycanın ən müasir, kompleks inkişaf edən şəhərinə çevriləcəkdir. Bizim müstəqilliyin ilk illərində buraxdığımız nöqsanlardan ən böyüyü ondan ibarətdir ki, biz şəhərlərin salınması prosesində bir çox amilləri kənarda saxladıq.

Şəhərlər təkcə əhalinin artması ilə müəyyən olunmur. Şəhərlərin yaradılmasının şəhərsalma amilləri var. Harada şəhər varsa, orada mütləq sənaye müəssisəsi, kənd təsərrüfatı, emal müəssisələri var.

Çünki əhalinin kənd təsərrüfatı ilə məşğul olması şəhər olması demək deyildir. O, böyük bir regional mərkəzə çevriləcəkdir. Həm də cənab prezident çox vacib bir məsələyə toxundu və bildirdi ki, bu, sahələrarası regionda əlaqələr inkişaf edəcəkdir.

Xankəndi ilə Şuşa, Şuşa ilə Kəlbəcər, Laçın, Cəbrayıl, bütün bunlar bir-biri ilə təsərrüfat əlaqələri quraraq inkişaf edəcəkdir. İndi buraxılan nöqsanlardan biri ondan ibarətdir ki, regionların inkişafında hər rayon başqa rayonda olan məsələni nəzərə almadan təkrara yol verir. Amma burada belə şeylər olmayacaq.

"Böyük qayıdış" proqramı çərçivəsində biz burada emal sənaye müəssisələrini inkişaf etdirmək istəyiriksə, bütövlükdə regionu təhlil edəcəyik. Burada bu müəssisə tikilirsə, o birisinin tikilməsini əsaslandırmalıyıq. Amma bu gün elə məsələlər var ki, bir rayonda müəyyən problemlər var, qonşu rayonda da. Ona görə cənab prezident qarşılıqlı əlaqələr, təsərrüfat əlaqələrinin inkişafına çox mühüm yer verdi. Bu da bizim Azərbaycan strukturları üçün, mən deyərdim, ən vacib, nəzərə alınmalı məsələlərdən biridir.

Biz ixtisaslaşmanı yaddan çıxartmışıq.

Amma cənab prezidentin bu çıxışından sonra mənə elə gəlir ki, müvafiq strukturlar fikirləşməlidirlər ki, biz məhsuldar qüvvələri necə inkişaf etdirək, regionlarda necə yerləşdirək ki, təsərrüfat əlaqələri daha da sistemli olsun? Bakıdan yüklər gedir, amma eyni yüklər də ordan bura gəlir. Nə üçün? Çünki ixtisaslaşma yoxdur. Mən buna əminəm ki, hökumət, müvafiq strukturlar bu məsələyə elmi cəhətdən yanaşacaqlar.

Məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi və istehsalı sxemi hazırlanmalıdır.

*- Ziyad müəllim, bu həm də həmin o ərazilərin, Qarabağımızın inkişafına da zəmin yaradacaq. Niyə? Bax, siz vurğuladınız ki, şəhərlərin böyüməsi əhalinin sayına görə müəyyənləşir. Misal üçün, paytaxt Bakımız. Nə qədər ki, əhali buraya axın edir baxırsan ki, Bakı böyüyə-böyüyə gedir və az qala Sumqayıta qədər çatıb. Həmin ərazilərdə bu müəssisələrin açılması Bakıya axını da bir növ dayandıracaq.*

- Birmənalı şəkildə. Çünki vaxtilə Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə 1976-90-cı illərdə məhsuldar qüvvələrin yerləşdirilməsi sxemi hazırlanmışdı.

Təbii ki, iri şəhərlərdə iri müəssisələr, ətraf mühiti pisləşdirən müəssisələr olmamalıdır. Amma eyni zamanda ətrafda yüngül sənaye müəssisələri hazır parçalardır, burada istehsal var. Biz gərək daxili istehlakı daxili yerli istehsal hesabına ödəyək. Əgər bu, varsa, onda Azərbaycan tarazlı, dinamik inkişaf edə bilər.

Onsuz da bu inkişafa nail olacağıq. Bir daha iqtisadçı kimi, tam məsuliyyətlə deyə bilərəm ki, cənab prezidentin media nümayəndələri ilə bu görüşündə qaldırılan məsələlər uzun illər Azərbaycanın dəyərli sosial-iqtisadi inkişafına xidmət edəcəkdir.

*- Çox sağ olun, Ziyad müəllim. Məsələləri həm tarixi cəhətdən, həm sovet dövründə iqtisadi sahədə çalışmış bir mütəxəssis kimi, həm də yeni reallıqlar baxımından şərh etdiniz.*

*Bir daha suallarımızı cavablandırdığınız üçün sizə təşəkkürümüzü bildiririk.*